**Əlixan Musayev**

# VƏTƏNPƏRVƏRLİK

**Redaksiya heyəti:**

Əlixan Musayev

Mübariz Qarayev

Aydın Salehli

Əzim Hüseyn

Elxan Rüstəmov

Diqqətli oxucu! Kitabda rast gəlinən ərəbcə dua-ifadələrin oxunuşu aşağıdakı kimidir:

ﷺ – *sallallahu aleyhi və səlləm* – Ona Allahın salavatı və salamı olsun.

عليه السلام – *aleyhis-səlam* – Ona salam olsun.

رضي الله عنه – *radıyallahu anhu* – Allah ondan razı olsun.

رضي الله عنهم – *radıyallahu anhum* – Allah onlardan razı olsun.

رضي الله عنهما – *radıyallahu anhumə* – Allah hər ikisindən razı olsun.

بِسۡمِ ٱللَّهِ ٱلرَّحۡمَٰنِ ٱلرَّحِيمِ

**Mərhəmətli, Rəhmli Allahın adı ilə!**

Həqiqətən, həmd-sənalar yalnız Allaha məxsusdur! Biz Ona şükür və tərif edir, Onu köməyə çağırır, Ondan bağışlanma və bizi haqq yoluna yönəltməyi diləyir, nəfslərimizin şərindən və pis əməllərimizdən qorunmaq üçün yalnız Ona pənah aparırıq. Allah kimə hidayət versə, o, haqq yolunda olar və kimi də azdırsa, onu haqq yoluna yönəldən tapılmaz. Mən şahidlik edirəm ki, Allahdan başqa ibadətə haqqı olan məbud yoxdur, Onun şəriki yoxdur və şahidlik edirəm ki, Muhəmməd Onun qulu və elçisidir.

**«Ey iman gətirənlər! Allahdan Ona layiq olan tərzdə qorxun və ancaq müsəlman olduğunuz halda ölün!»**[1]

---

[1] «Ali İmran» surəsi, 102.

**«Ey insanlar! Sizi tək bir candan xəlq edən, ondan zövcəsini yaradan və o ikisindən də bir çox kişi və qadın *törədib yer üzünə* yayan Rəbbinizdən qorxun! Adı ilə bir-birinizdən *cürbəcür şeylər* istədiyiniz Allahdan və qohumluq əlaqələrini kəsməkdən çəkinin! Həqiqətən, Allah sizə nəzarət edir.»[2]**

**«Ey iman gətirənlər! Allahdan qorxun və doğru söz danışın ki, O, sizin əməllərinizi islah etsin və günahlarınızı bağışlasın. Kim Allaha və Onun rəsuluna itaət etsə, böyük bir uğur qazanar.»[3]**

Bütün həmd-sənalar və şükürlər bizi müsəlman kimi yaradan, düz yola yönəldərək hidayət verən, aləmlərin Rəbbi, haqq-hesab gününün Hökmdarı olan Allaha məxsusdur!

---

[2] «ən-Nisa» surəsi, 1.

[3] «əl-Əhzab» surəsi, 70-71.

Hörmətli müsəlman bacı və qardaşlarım! Məni sizə bu müraciəti etməyə vadar edən səbəb bir çoxlarının etinasız yanaşdığı və ya düzgün qiymətləndirmədiyi bir hisslə – vətənpərvərlik hissi və onun mahiyyətinin aşılanması ilə bağlıdır. Bu mövzuya müraciət etməyim heç də təsadüfi deyil. Bu məsələnin qabardılması həm daxili hisslərimin, həm də cəmiyyətin tələbatı olduğu üçün, müsəlman həmvətənlərimin vətənə münasibətini düzgün prizmadan – Quran və Peyğəmbərimizin ﷺ səhih hədisləri çərçivəsində qiymətləndirməsində azacıq da olsa yardımçı olmaq istərdim.

Vətənpərvərlik hər bir insanın fitrəti ilə bağlı bir hissdir. Vətəni sevmək, onun ərazisini düşmənlərin hücumundan qorumaq, böyüyüb boya-başa çatdığın torpağın çiçəklənməsi, inkişafı üçün çalışmaq çox mühüm bir vəzifədir.

Hər bir həssas insan, hətta qısa bir müddətə olsa, belə vətəndən ayrı düşdükdə qəlb

sıxıntısı keçirir, doğma elin həsrətini çəkir və öz dədə-baba yurduna mümkün qədər tez qayıtmaq hissi ilə yaşayır. Bu hisslərin təsiri ilə kifayət qədər əsərlər yazılmış və yazılmaqdadır. Lakin bununla belə, cəmiyyətdə hərdən elə insanlara da rast gəlinir ki, onların vətənə fərqli münasibəti yalnız təəssüf hissi doğurur. Maraqlıdır, görəsən dogma vətənə nə cür biganə qalmaq olar? Axı insan hansı məntiqlə öz vətəninə qarşı çıxa bilər? Vətənin ərazisini qorumaqdan imtina etmək, onun əleyhinə casusluq etmək kimi fikirləri isə heç dilimə gətirmək belə istəmirəm. Əfsuslar olsun ki, cəmiyyətimizdə belə xainlərə rast gəlinir. Təbii ki, bu, həmin kəslərin mənəvi dəyərlərə və sağlam əqidəyə malik olmaması ilə bağlıdır. Sağlam əqidənin olmaması isə düzgün idealın seçilməməsinin nəticəsidir.

Biz yaxşını pisdən yalnız doğru yol olan İslamla ayırd edə bilərik. Söhbət İslamdan

düşüncə, bu məqamda nəinki mənə, hətta bütün bəşəriyyətə nümunə olan bir insanın – ən yaxşı keyfiyyət və xüsusiyyətlərin daşıyıcısı olan peyğəmbərimiz Muhəmmədin ﷺ nümunəsində vətənpərvərlik hisslərinə nəzər salmaq məqsədəuyğun olardı. Çünki Pak və Uca Allah Peyğəmbərin ﷺ müsəlmanlar üçün ən gözəl nümunə olduğunu bu sözü ilə təsdiqləyir:

**«Allahın Rəsulu sizlərə – Allaha və Axirət gününə ümidini bağlayanlara və Allahı çox zikr edənlərə gözəl nümunədir».[4]**

Təbii ki, Peyğəmbərimizin ﷺ vətənə münasibəti birmənalı idi. Onun özü də vətən həsrəti çəkər, ondan ayrı düşdükdə darıxar və əhli-əyalının yanına tez qayıtmaq istəyərdi. Ənəs ibn Malikdən رضي الله عنه rəvayət olunan hədisdə deyilir: «Peyğəmbərimiz ﷺ səfərdən qayıtdıqda Mədinənin yollarına baxar və

---

[4] «əl-Əhzab» surəsi, 21.

dəvəsini tez sürüb gedərdi. Başqa bir minik üzərində olduqda isə, onu tələsdirərdi».[5]

Məşhur İslam alimi İbn Həcər bu hədisi izah edərkən deyir: «Bu hədis dəlildir ki, Mədinə möhtəşəm bir şəhərdir, vətəni sevmək və onun həsrətini çəkmək isə şəriətdəndir».[6]

Hədisin buna dəlalət etdiyini Mübarəkfuri də təsdiqləmişdir.[7]

Başqa bir hədisi də bu məsələyə dəlil gətirmək olar: «Peyğəmbər ﷺ Təbukdan evə qayıdarkən səhabələrinə dedi: "Mən Mədinəyə tələsirəm. Sizlərdən hər kim mənimlə *Mədinəyə* tez getmək istəyirsə, qoy tələssin"».[8]

Başqa bir rəvayətdə isə deyilir: «Səfər, əzabdan bir parçadır. O, hər birinizi yatmağından, yeməyindən və içməyindən qoyur.

---

[5] «Səhih əl-Buxari», 1802.
[6] «Fəth əl-Bari», 3727.
[7] «Töhfətül Əhvəzi», 9283.
[8] «Səhih əl-Buxari», 1481.

Hər kim öz tələbatını ödəyərsə, *bundan sonra* əhli-əyalının yanına tələssin».[9]

Əslində, bir insan olaraq Peyğəmbərimizin ﷺ öz vətənini sevməsi qeyri-adi bir şey deyildir. Burada diqqəti çəkən əsas məqam seçilmiş bir insanın – Peyğəmbərin ﷺ vətənpərvərlik hissinin keyfiyyətidir. Peyğəmbərin ﷺ vətənpərvərlik hissinə olan marağımız həm də onun adi bir insan deyil, İlahi təlimləri bizə çatdıran bir şəxs olması ilə də bağlıdır. Peyğəmbərimizin ﷺ bizə çatdırdığı İlahi təlim tam kamil əxlaqi dəyərlərin məcmusudur və burada vətənpərvərlik hissi də özünəməxsus yer tutur. Bu əvəzsiz insanın bizə təbliğ etdiyi İslam dininin kamil olmasını Qurani-Kərim də təsdiqləyir:

**«Bu gün dininizi sizin üçün kamil etdim, sizə olan nemətimi tamamladım və sizin üçün din olaraq İslamı bəyəndim».**[10]

---

[9] «Səhih əl-Buxari», 3001.

Bütün bu dəlillər bir daha sübut edir ki, digər məsələlərdə olduğu kimi, vətənpərvərlik hisslərinin aşılanması, torpağa sevgi və onun müdafiəçisi olmaq işində də Peyğəmbərimiz ﷺ bizə ən gözəl nümunədir. Buna görə də digər məsələlərdə olduğu kimi, bu işlərdə də ona alternativ axtarmaq yalnız mənasız vaxt itkisidir. O, bizə İslam adlanan elə bir nur çatdırmışdır ki, bu nurun işığına qərq olmuş bir ölkədə torpaq itkisi kimi ağrılı bir durum olmamalıdır. Məhz elə bu səbəbdəndir ki, müsəlmanların torpaqlarını zəbt etmək istəyənlər hər şeydən öncə bu ərazilərdə İslam nurunu söndürməyə çalışarlar. İnsanlar bu nurdan uzaqlaşdırıldıqda isə zəlalət və cəhalət içində yaşamaq məcburiyyəti ilə üzləşirlər. Lakin insanlar bilməlidirlər ki, Allahın nurunu tamamilə söndürmək mümkün deyildir. Onlar onu

---

[10] «əl-Maidə» surəsi, 3.

söndürməyə sadəcə cəhd edə bilərlər. Uca Allah buyurur:

**«Onlar öz ağızlarıyla Allahın nurunu söndürmək istəyirlər. Kafirlərin xoşuna gəlməsə də, Allah Öz nurunu tamamlayacaq».**[11]

Bildiyimiz kimi, doğma Azərbaycanımızın 20 faiz torpaqları 30 ilə yaxın bir müddətdə düşmənlərimizin işğalı altında oldu. Bu işğal nəticəsində evlərimiz, məktəblərimiz, mədəni-məişət obyektlərimizlə yanaşı ibadət yerlərimiz, məscidlərimiz də dağıntıya məruz qaldı. Bu 30 ildə düşmənlərimiz və onların havadarları törətdikləri bu cinayətləri bizə unutdurmaq üçün müxtəlif vasitələrdən istifadə edirdilər. Mənfur düşmən baş verən cinayətlərinə laqeyd münasibət göstərməyimiz üçün dəridən-qabıqdan çıxır və əllərində olan maddi, texniki, kütləvi və digər vasitələrdən istifadə etməklə müxtəlif təbliğatlar

---

[11] «əs-Saff» surəsi, 8.

aparır, bizi yurdumuzdan çıxaranlara qarşı mülayim olmağa, onlara silah qaldırmamağa səsləyirdi.

Xalqımız bədbinliyə qapılmadı və əsla fəaliyyətsiz də dayanmadı. Dövlətin rəhbərliyi ölkənin bütün resurslarını düşünülmüş bir şəkildə səfərbər edərək xalqı Vətənin işğal olunmuş ərazilərini azad etməyə hazırladı. Düşmənin təbliğatı batil ideya və fikirlərə əsaslandığı halda, ölkəni idarə edənlər daha effektiv əks-təbliğat apardı, gənclərimizin qəlbində vətənpərvərlik ocaqlarını daha da alovlandırdı, xalqı təslimçilik düşüncəsinə qarşı daha da sıx birləşdirməyi bacardı. Dövlətimiz çox ağıllı bir siyasətin və hərbi hazırlığın nəticəsi olaraq torpaqlarımızın azad edilməsi üçün tam səfərbər edildi və ordumuz uğurlu hərbi əməliyyatlar həyata keçirməklə bu ağrılı işğala son qoydu.

Biz Qarabağın itkisi ilə heç cür barışa bilməzdik. Ölkə rəhbərliyi də bu qələbənin

təmin edilməsi üçün istər siyasi, istərsə də hərbi həmlələrimizlə tələb olunan hər bir gedişi çox uğurla həyata keçirərək qələbəmizi təmin etdi.

Mənfur düşmənlər doğma Qarabağımızda Allahın nurunu söndürməyə çalışdı, lakin hər zaman olduğu kimi, Allah öz nurunu yenə də tamamladı. Allahın Azərbaycan xalqına və dövlətinə verdiyi bu bacarıq, mətanət və əzmkarlıq sayəsində artıq bu gün işğaldan azad edilən torpaqlarda məscidlərimiz bərpa edilir və o məscidlərdən yenidən azan səsi ucalır. Dövlətimiz əsl iqtisadi və mədəni inkişaf yolunun torpaqların işğaldan azad edilməsindən keçdiyini əyani şəkildə sübut etdi. Xalq bir daha əmin oldu ki, bizim torpaqlarımız işğal altında qaldıqca, sərhədlərimiz azad edilmədikcə, şəxsi həyatımızda işlərimizin rəvan gedəcəyini sadəcə arzu edə bilərdik. Zamanında düşmən təbliğatından təsirlənərək "Vətən mənə nə verib?"

deyənləri də gördük. Biz bir an belə bu fikirləri özümüzə yaxın buraxmadıq. Buraxa da bilməzdik! Biz Peyğəmbərimizin ﷺ yolunu gedən, hər bir işində, əməlində ona istinad edən bir müsəlman olaraq bu əqidəmizdən və yaşayışımızdan qürür duyuruq və xeyribərəkəti də vətəndən deyil, məhz Allahdan istəyirik ki, onu yenidən dinimizin saflığını qorumağa, vətənin çiçəklənməsi və ailəmizin səadəti naminə sərf edək. Uca Allahın izni və sonra da ağıllı idarəçiliyin sayəsində biz torpaqlarımızı azad etdik və bundan sonra İslamın nurunu yenidən o yerlərə yayacağıq. O torpaqlarda, inşaAllah, bundan sonra yenə də azan səsi eşidiləcək, şəriki olmayan Allaha ibadət ediləcəkdir. Allahın verdiyi vəd isə, əlbəttə ki, haqdır. Uca Allah Qurani-Kərimdə İslamın nurunu yayacağına dair belə bir vəd verir:

**«Onlar ağızları ilə Allahın nurunu söndürmək istəyirlər. Allah isə *buna* yol verməz,**

**kafirlərin xoşuna gəlməsə də, O, Öz nurunu tamamlayacaq».**[12]

Ey müsəlman qardaşım! Sən əmin ola bilərsən ki, Allah heç vaxt vədinə xilaf çıxmır və Onun söylədiyi sözlər haqdan başqa bir şey deyildir.

**«Həqiqətən, Allah vədinə əsla xilaf çıxmaz!»**[13]

Odur ki, əziz qardaşım, biz bundan sonra daha da ayıq-sayıq olmalı, dünya işlərinə başımızı qatmaqla ən vacib məsələləri unutmamalıyıq. Gəlin bundan sonra da vətənimizin bütövlüyü, təhlükəsizliyi, əmin-amanlıq içində və bərəkətli olması üçün çalışaq və bu yolda yorulmadan biliklərimizi, elmimizi artıraq. Unutmayaq ki, inkişaf və müasirlik xarici qiyafəsini dəyişərək özünü kiməsə oxşatmaqla deyil, məhz elm öyrənməklə olur.

---

[12] «ət-Tovbə» surəsi, 32.

[13] «Ali İmran» surəsi, 9.

Biz heç zaman unutmamalıyıq ki, əmin-amanlıq özü də böyük bir nemətdir. Elə buna görə də peyğəmbərlər Uca Allaha dualarında bu məsələyə xüsusilə yer ayırardılar. Bu, Quranda belə təsvir edilir:

**«Bir zaman İbrahim demişdi: "Ey Rəbbim! Buranı təhlükəsiz bir şəhər et, onun əhalisinə, – onlardan Allaha və Axirət gününə iman gətirənlərə *hər növ* məhsullardan ruzi ver!»**[14]

İbrahim peyğəmbərin عليه السلام bu duası da "Vətən mənə nə veribdir?" deyən kəsə növbəti bir dəlildir ki, hər bir şeyi Allahdan istəmək, sonra isə bunun üçün əməli fəaliyyət göstərmək lazımdır. Biz bundan sonra Vətənimizdə tam bir əmin-amanlığa nail olmaq üçün azad edilən torpaqlarımızda uğurlu quruculuq işlərini həyata keçirməli və ölkə rəhbərliyinin idarəçiliyi altında hərbi

[14] «əl-Bəqərə» surəsi, 126.

qüdrətimizi daha da artırmalıyıq. Biz əmin-amanlığın necə gözəl bir nemət olduğunu gözəl şəkildə dərk edən bir toplumuq.

Peyğəmbərimiz ﷺ demişdir: «Hər kim səhər oyanıb özünü əmin-amanlıqda, bədənini sağlam, əlində də həmin günün yeməyini görərsə, elə bilsin ki, ona bütün dünya bəxş edilmişdir».[15]

Baxın, Peyğəmbərimizin ﷺ bu tövsiyəsi necə də gözəldir! Elə isə, gəlin, biz də bu nəsihətlə yararlanaq, Allah rizası üçün vətənimizin çiçəklənməsi yolunda yorulmadan çalışaq. Onun inkişafı, gənclərimizdə sağlam əqidə və baxışların formalaşdırılması, dini və milli köklərimizə möhkəm bağlılıq yolunda var-gücümüzü səfərbər edək və bundan sonra daha güclü bir iradə ilə sərhədlərimizin keşiyində duraq, bu yolda qarşımıza çıxan çətinliklərə isə səbr edək. Bu hissləri özündə

[15] «Səhih Ədəbul Müfrad», səh. 27.

daşıyan qardaşlarıma Uca Allahın Kitabından "Ali İmran" surəsinin 200-cü ayəsini xatırlatmaq istərdim:

**«Ey iman gətirənlər! Səbir edin, *düşmən qarşısında* dözümlü olun, daim keşikdə durun və Allahdan qorxun ki, bəlkə nicat tapasınız!»**

Bu xüsusda Peyğəmbər ﷺ demişdir: «Allah yolunda bir gün *sərhəddə* keşik çəkmək, dünya və onun üzərindəkilərdən xeyirlidir!»[16]

Digər bir hədisdə isə o: «Malını qoruyaraq ölən şəxs şəhiddir» söyləmişdir.[17]

Başqa bir hədisdə Peyğəmbər ﷺ demişdir: "Allah yolunda bir saat keşik çəkmək, Qədr gecəsini *Məscidulhəramda* qara daşın yanında ibadətlə keçirməkdən daha xeyirlidir".[18]

---

[16] «Səhih əl-Buxari», 2892; «Səhih Muslim», 5/1520.

[17] «Səhih əl-Buxari», 2877; «Səhih Muslim», 1124.

[18] «Səhih İbn Hibban», 4603; «Səhih ət-Tərğib vət-Tərhib», 1223.

Digər bir hədisdə Peyğəmbər ﷺ demişdir: "Kimin ayaqları Allah yolunda toz-torpağa bulaşarsa, Allah ona Cəhənnəm odunu haram edər."[19]

Yenə bir hədisdə Peyğəmbər ﷺ demişdir: "Allah yolunda bir gün və bir gecə sərhəddə keşik çəkmək, bir ay *gündüzləri* oruc tutmaq, gecələrini də qiyamda *gecə namazında* keçirməkdən daha xeyirlidir. Əgər *mömin adam sərhəddə keşik çəkərkən* ölərsə, etdiyi yaxşı əməlləri davamlı olaraq onun savabını artırar, ona xeyirli ruzi bəxş edilər və o, fitnədən qorunar."[20]

Sərhəddə keşik çəkən mömin əsgər şəhid olduqdan sonra, vaxtı ilə etdiyi yaxşı əməlləri Qiyamət gününədək ona savab qazandırar. Bu xüsusda Peyğəmbər ﷺ belə buyurmuşdur:

---

[19] «Səhih əl-Buxari», 907.

[20] «Səhih Muslim», 1913.

“Dünyadan köçən hər kəsin əməl dəftərinə möhür vurulur. Yalnız Allah yolunda sərhəd boyu keşik çəkən kimsədən başqa – onun əməli Qiyamət gününədək onun savablarını artırır.”[21]

Habelə, sərhəddə keşik çəkən mömin əsgər şəhid olduqdan sonra, Qüdrətli Allah ona bərzəx aləmində xeyirli ruzi və bol nemətlər bəxş edir. Bu xüsusda Uca Allah belə buyurur:

**“Allah yolunda öldürülənləri əsla ölü sanma. Əksinə,** ***onlar*** **diridirlər; özlərinin Rəbbi yanında onlara ruzi verilir. Onlar Allahın Öz lütfündən onlara verdiyi nemətə fərəhlənir, arxalarınca gəlib hələ onlara çatmamış kəslərin heç bir qorxu ilə qarşılaşmayacaqları və kədərlənməyəcəkləri müjdəsinə sevinirlər. Onlar Allahın neməti və**

[21] «Sunən Əbu Davud», 2500.

**lütfünə görə, həm də Allahın möminlərin mükafatını heçə çıxarmayacağı müjdəsinə sevinirlər."**[22]

Şəhidin fitnədən qorunmasına gəlincə, bu da o deməkdir ki, qəbirdə hər kəsdən: "Rəbbin kimdir? Peyğəmbərin kimdir? Dinin nədir?"– deyə soruşan Nəkir və Munkir adlı iki mələk Allah yolunda şəhid olan kimsənin yanına gəlib ona bu sualları verməyəcəklər.[23]

Ayə və hədislərdən göründüyü kimi, Allah yolunda bir gün sərhəddə keşik çəkərək öz müsəlman xalqının təhlükəsizliyini qorumaq gözəl bir xidmətdir. Xitabımın bu yerində diqqətinizi bəzi insanların İslamın digər ərkanlarında, şəriətimizin qaydalarında olduğu kimi, vətəni sevmək məsələsində də uydurduqları yeniliklərə yönəltmək istərdim. Biz daima insanlara kamil dinimizdə yeniliyə

---

[22] «Ali İmran» surəsi, 169-171.

[23] «Şərh Riyadus-Salihin», 5/355.

ehtiyac olmadığını və əksinə, bu əməlin böyük bir günah olduğunu xatırladırıq.

Şəriətlə bağlı məsələlərdə edilən hər hansı bir yenilik zahirən yaxşı görünsə belə, dində böyük günah hesab edilir. Əvvəla ona görə ki, «əl-Maidə» surəsinin 3-cü ayəsində Uca Allah artıq bu dinin kamil olduğunu və bu dində heç bir boşluğun olmadığını bəyan etmişdir. Həmçinin Peyğəmbərimiz ﷺ də dinə gətiriləcək hər bir yeniliyin, o cümlədən, zahirən yaxşı görünən yeniliyin də bidət, hər bir bidətin də zəlalət olduğunu bildirmiş və hər bir zəlalətin də Cəhənnəm odunda olacağını xəbər vermişdir. Bu risalədə qaldırılan problemlə əlaqəli yenilik isə "Vətəni sevmək imandandır!" şəklində uydurulan bir hədislə bağlıdır. Səğani öz əsərində bu hədisin uydurma olduğunu, lakin mənasının doğru olduğunu qeyd etmişdir. O, buna dəlil olaraq aşağıdakı ayəni gətirmişdir:

**«O dedi: "Sizə döyüş vacib edildikdə, bəlkə heç döyüşmədiniz?" Onlar dedilər: "Niyə Allah yolunda döyüşməyək ki, biz yurdumuzdan çıxarıldıq, övladlarımızdan ayrıldıq?!" Döyüşmək onlara vacib edildikdə isə, onlardan az bir qismi istisna olmaqla** ***hamısı döyüşdən*** **üz çevirdi. Allah zalımları** ***yaxşı*** **tanıyır.»**[24]

Alim bu ayəni əsas gətirərək yazır: "Bu, münafiqlərdə də vətən sevgisinin ola bilməsini, amma bunun imana aid olmamasını göstərir".[25]

Bəli, həqiqətən də ifrata varmaq olmaz. Dində, Peyğəmbərin ﷺ söyləmədiyi bir sözün ortaya atılıb onun dinə aid edilməsi qadağandır. Şəriətdə istənilən məsələ ilə bağlı, o cümlədən vətənə məhəbbət məsələsinə də bağlı dəlillər yetərincə aydın və dəqiqdir.

---

[24] «əl-Bəqərə» surəsi, 246.

[25] «Kəşfül Xafə», 1413.

Hər bir müsəlman daşıdığı adı və mənsub olduğu dini uca tutduğu kimi, vətəninin də şərəfini layiqincə qiymətləndirməlidir. Burada söhbət qatı millətçi olmaqdan, yaxud yerlibazlıqdan getmir. Çünki bunlar dinimizdə qadağan edilmişdir.

Bizim müxtəlif xalqlara ayrılmağımızın hikmətini isə Uca Allah belə izah edir:

**«Ey insanlar! Biz sizi bir kişi və bir qadından yaratdıq. Sonra bir-birinizi tanıyasınız deyə, sizi xalqlara və qəbilələrə ayırdıq. Şübhəsiz ki, Allah yanında ən hörmətli olanınız *Ondan* ən çox qorxanınızdır. Həqiqətən, Allah *hər şeyi* biləndir, *hər şeydən* xəbərdardır.»**[26]

Biz xalqlar içərisində təmiz mənəviyyata və əxlaqa, yüksək iman və etiqada, sağlam təfəkkürə görə seçilməli və bu keyfiyyətləri

---

[26] «əl-Hucurat» surəsi, 13.

daim inkişaf etdirməliyik. Yalnız belə olduqda tərəqqi və inkişaf üçün münbit şərait yaranar.

Biz vətənin ərazisini qorumaqla yanaşı onun tarixini və şöhrətini də dünya xalqları arasında təbliğ etməliyik. Xüsusən də, bizim vətənimiz Azərbaycan İslam tarixində layiqli yerə malik olmuşdur. Söhbətin bu yerində həmvətənimizin yaşadığı bir hadisə yadıma düşür. Bu hadisəni xatırlatmaqla dəyərli soydaşlarımın vətənə olan məhəbbətini daha da artırmaq istərdim:

Soydaşımızın təhsil aldığı xarici ölkələrin birində onunla bir qrupda oxuyan tələbə yoldaşı haradan olduğunu xəbər alır. O da ona Azərbaycandan olduğunu söylədikdə o, yarızarafat, yarıgerçək bu ölkənin adını birinci dəfə eşitdiyini və belə bir məmləkəti tanımadığını deyir. Dediyinə görə, Azərbaycanın adının səslənməsi də ona qəribə gəlir. Soydaşımız hər şeydən öncə ona yuxarıda qeyd

olunan «Hucurat» surəsinin 13-cü ayəsini xatırladaraq Allah yanında ən hörmətli insanın, millətindən asılı olmayaraq, Allahdan ən çox qorxan kəs olduğunu bildirir. Sonra o, yoldaşına bir Azərbaycanlı olaraq təhsilində əldə etdiyi uğurlarla öz nəticələrini müqayisə etməyi məsləhət görür. Tələbə yoldaşının bu məsələdə vəziyyəti ürəkaçan deyildi. Bunun ardınca ona Azərbaycanın tanınmış İslam alimlərini, xüsusən Əbu Bəkr əl-Bərdici əl-Bərzəini xatırladır. Bu alimin yaşadığı yer haqqında nəinki qrup yoldaşının, eləcə də bütün İslam dünyasının böyük hörmət və ehtiram bəslədiyi bir alim – 13-cü əsrdə yaşamış və İslam tarixində iz qoymuş imam Cəlaləddin əs-Suyutinin: «Bərdic, Azərbaycanın Bərdə yaxınlığında yer adıdır»[27] qeydlərini çatdırdıqda, onun dediyi sözdən çəkdiyi peşmanlıq bir qədər də artır. Nəhayət,

---

[27] «Tədribur-Ravi», 1/238.

ona hicrətin 194-cü ilində (miladi IX əsr) anadan olmuş məşhur İslam alimi Buxarinin "Səhih" əsərində, 2193-cü hədisdə Azərbaycanın adının nəql edilməsini xatırlatdıqda, o, daha da heyrətlənir. Çünki hədis Azərbaycanın tarixini İslamın ikinci xəlifəsi Ömər ibn əl-Xəttabın ﵁ dövrünə aparıb çıxarır. Həmin hədisdə deyilir ki, «Əbu Osman rəvayət edir ki, biz Ütbə ibn Fərqadla ﵁ birgə Azərbaycanda olanda Ömər ibn əl-Xəttabın məktubu gəlib bizə çatdı». Bu dəlil artıq Azərbaycanın yeddinci əsrdə olan mövqeyindən xəbər verir. Bu hədisi hicrətin 204-cü ilində anadan olmuş məşhur İslam alimi Muslim də öz əsərində, 642 saylı hədisdə rəvayət etmişdir. Soydaşımız tələbə yoldaşının yumşaldığını görüncə, son olaraq, ona Peyğəmbərimizin ﷺ çox sevimli dostu və İslamın nüfuzunu Ərəbistandan çox-çox uzaqlara yaymış, Ömərin oğlu Abdullahdan ﵄: «Mən iki və ya dörd ay ərzində Azərbaycanda olduqda dörd rükətli

namazları iki-iki qıldım!» kimi rəvayət olunan hədisi də xatırladır. Bu hədisi Heysəmi «Məcməuz-Zəvaid» əsərində 2158 sayla qeyd etmişdir. Təbii ki, soydaşımızın gətirdiyi bu səhih dəlillər tələbə yoldaşında Azərbaycan haqqında xoş təəssüratlar oyatdı.

Əziz qardaşlarım! Mən bunları söyləməklə sizə də vətənini, onun tarixini, görkəmli şəxslərini dünyaya tanıtmağı tövsiyə etmək istərdim. Unutmaq olmaz ki, bu cür münasibət İslama dəvətdə müsbət nəticələrə gətirib çıxarır. Xüsusilə də müasir elmi-texniki vasitələr buna daha geniş imkanlar açır.

Vətəninizi sevin və onu dünyaya tanıdın!

Artıq bu tövsiyələrimi sizə çatdırdıqdan sonra iki mühüm məsələyə də biganə qalmamağınızı məsləhət görürəm. Bu deyəcəklərim bizə həm daxildən, həm də xaricdən yönəldilən və bizi zəiflətmək məqsədi güdən təsirlərdən qorunmaq üçündür.

Bilirik ki, hər bir xalqın aparıcı qüvvəsi gənclərdir. Onların baxışları, əqidələri saf və təmiz olarsa, onlar həm dinimizin, həm də dövlətimizin əsas dayaqlarına çevrilərlər. Elə bu səbəbdən də üzümü gənc nəsilləri böyüdən valideynlərə tuturam:

Əziz soydaşlarım! Dünyanın aldadıcı görüntüsü, keçici zövqü sizi aldatmasın. Övladlarımızın tərbiyəsi ilə ciddi məşğul olun. Oğlan və qızların necə tərbiyə edilməsi, yeniyetmələr arasında normal münasibətlərin yaradılmasına necə nail olunması üçün ən dəyərli, ən kamil, ən əvəzedilməz mənbə müqəddəs Quran və Peyğəmbərimizin ﷺ mötəbər hədisləridir. Onlardan layiqincə yararlanın! Unutmayın ki, uşaqlar hər kəsdən öncə valideynlərini özünə ideal seçir və sonra onlardan gördüklərini və eşitdiklərini hələ yetişməmiş düşüncələri ilə araşdırırlar. Elə məhz bu səbəbdən də hər şeydən öncə sizin özünüzün,

İslamın adına layiq müsəlman və vətənpərvər olmağınız gərəkdir.

Bütün bu sadaladığım çatışmazlıqlar, boşluqlar heç də birdən-birə, gözlənilmədən meydana çıxmır. Bu məsələlər illərlə aparılan təbliğatın təsirindən formalaşır. Belə halların baş verməməsi üçün ailə, məktəb və cəmiyyətin sağlam fikirli fərdlərinin səyi gərəkdir.

Ailənin hər şeydən öncə özünün sağlam olması vacib şərtlərdəndir. Yaxşı qurulmuş ailə, əslində, müsəlman tərbiyəsi vasitələri ilə zəngin olan saf, təmiz bir aləmi xatırlatmalıdır ki, belə bir aləmdə də vətənə layiqli vətənpərvərlər yetişdirilsin. Bu işdə Quran və səhih hədislərlə təsdiq edilmiş İslam adətləri xüsusi çəkiyə malik olmalıdır. Kəlmeyi-şəhadətdən başlayaraq tədricən öyrədilən ayinlər daha sonra gələcək yeniyetmənin bir mənəvi tələbatına çevrilərək vərdiş halı alır ki, bu da həqiqi vətənpərvər gənc üçün vacib olan imanı

formalaşdırır. Belə bir imanla dolu bir gənc, sözsüz ki, döyüş meydanında düşmənə layiqli cavab verəcək cəngavər, çətinliklə üzləşdikdə isə Allaha daha çox təvəkkül edən, öhdəsinə düşəni ləyaqətlə icra edəcək bir cəngavər olacaqdır.

Əsl vətənpərvər Azərbaycanlı yetişdirən valideyn, böyüməkdə olan övladının məktəb həyatı ilə daim maraqlanmalı, gərəyi olan anda ortaya çıxan problemlərin həllində ona kömək etməlidir. Ailə ilə məktəbin əlaqəsi heç bir zaman qırılmamalı və əksinə, inkişaf etdirilməlidir. Çünki həm ailənin, həm də məktəbin başlıca məqsədi vətənə layiqli vətəndaş yetişdirməkdir. Həm ailə, həm də məktəb tərbiyəsi, gələcək vətənpərvərlərin hərtərəfli biliyə malik, saf əqidəli, dinində və imanında sabit, əxlaqlı bir gənc kimi yetişdirilməsində öz töhfəsini verəcəkdir. Bu işdə ilahiyyat dərslərinin təhsil sisteminə daxil

edilməsi də təbii ki, yaxşı nəticə verərdi. Ona görə ki, dini bilikləri sistemli, proqramlı şəkildə doğru qaynaqlardan öyrənməyən gənc, ona lazım olan məlumatları digər yanlış mənbələrdən almaq təhlükəsi ilə üzləşir. Bu da, çox zaman arzu edilməyən nəticələrə gətirir. Belə ki, gənclər müxtəlif missionerlərin və xurafatçıların təsirinə məruz qalırlar. Böyüyən nəsil dünyada, ölkədə və ən əsası da ətrafında baş verən hadisələrə biganə qala bilməz. Gənclərin gördüyü hadisələr onlarda müəyyən təəssüratlar yaradır. Onların mənsub olduğu dinə, vətənə baxışları daim sizin nəzarətiniz altında olmalı, həyat təcrübəsinin az olması diqqətinizdən kənarda qalmamalıdır.

Uşaqlarda düzgün əqidənin formalaşmasının ilk məktəbi ailə olduğundan, ailədə onların yanlarında aparılan söhbətlərin mövzusu da böyük əhəmiyyət kəsb edir. Bu məlum bir məsələdir ki, uşaqlar oynadıqları

vaxt eşitdikləri söhbətləri, onları tərbiyə etmək məqsədilə edilən xəbərdarlıqdan daha tez qavrayır və beyinlərinə hifz edirlər. Böyüyən nəsildə İslama, dövlətə, millətə olan sevginin əsası da elə bu söhbətlərdə qoyulmalıdır. Əgər uşaq evdə daima Allahın yad edildiyini, valideyinlərinin namaz qıldığını, oruc tutub, zəkat verdiklərini görərsə, Peyğəmbərimiz ﷺ və onun səhabələrinin رضي الله عنهم adlarının tez-tez çəkildiyini eşidərsə, bu, onun təsəvvüründə dərin iz buraxar və gələcək fəaliyyətində müsbət meyillərin olmasına yardımçı olar.

Digər bir tövsiyyəm isə artıq yetkin, ölkədə baş verən proseslərə təsir etmək imkanları olan insanlaradır. Əslində, mən sizə tövsiyə etməklə özüm haqqında böyük tərbiyəçi imicini yaratmaq istəmirəm. Sadəcə dinimizdə olan, lakin unudulan və ya məqsədli şəkildə unutdurulub, bilərəkdən səhv səmtə

yönləndirilən məsələləri xatırlatmaq istəyirəm. Çünki Uca Allah bu xüsusda belə buyurur:

**«Sən xatırlat! Çünki xatırlatmaq möminlərə fayda verir.»**[28]

Hər bir müsəlman kimi mən özüm də Allah Kəlamına, Peyğəmbərimizdən ﷺ varid olan mötəbər hədislərə və nəhayət, qardaş nəsihətinə ehtiyac duyuram. Elə buna görə də xahiş edirəm tövsiyyələrimi yekəxanalıq kimi qəbul etməyin. Düşdüyümüz bəlaların çoxu Allaha asi olaraq, təkəbbürlük üzündən bir-birimizi dinləməyi bacara bilməməyimiz, qəlblərimizdə bir-birimizə qarşı şübhə və pis zənlərin olmasından meydana gəlmişdir.

Dəyərli soydaşlarım, gəlin bir olaq! Bir olaq ki, düşmənlərimizə endirəcəyimiz zərbələr də öldürücü olsun. Bir olaq ki, bu millət və onun mənsub olduğu din yayılsın. Gəlin

---

[28] «əz-Zariyat» surəsi, 55.

hamımız dinimiz, əxlaqımız, dövlətimiz, millətimizin bütövlüyü üçün yorulmadan çalışaq və hər işimizi də Uca Allaha dua ilə başlayıb, dua ilə bitirək.

«Allahım, ey aləmlərin Rəbbi, vətənimizdə bizim təhlükəsizliyimizi təmin et! Alimlərimizi və ixtiyar sahiblərimizi islah et! Bu diyarı və digər müsəlman ölkələrini əmin-aman, təhlükəsiz bir diyar et! Amin!»

Qoy Uca Allah bizə torpaqlarımızda daim əmin-amanlıq nəsib etsin! Qoy Uca Allah bizi daxilimizdəki fitnə-fəsaddan, ayrıseçkilikdən və ixtilaflardan qorusun!